

# Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və respublikada fəaliyyət göstərən teleradio şirkətlərinin birgə əməkdaşlıq haqqında bəyanatı

Son yüz ilin ən böyük möcüzəsi olan televiziya həm də sivil dünyanın bənzərsiz mədəniyyət hadisəsidir. Televiziya mədəni sərvətləri və mədəni prosesləri geniş kütlələr arasında yaymağa, sərhədləri aşaraq milli mədəniyyətləri dünyanın hər yerində canlı olaraq təqdim və təbliğ etməyə, ictimai rəy yaratmağa qadir qüdrətli vasitədir. Televiziyanın imkanlarını möcüzə adlandırmaq olar. Bu gün televiziya sərgi, tamaşa salonudur, kino zalıdır, rəssam emalatxanasıdır, yazıçının iş, müğənninin məşq otağıdır. Televiziya adı heç kəsə məlum olmayan sənətkarı şöhrətləndirir, ona layiq olduğu qiyməti verir, iddiası imkanlarından çox olanları yalançı şöhrət mərtəbəsindən endirir.

Tam bir qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycanda televiziyaların zəngin tarixi vardır. İlk dəfə 1956-cı ildə, 50 il öncə canlı olaraq efirə çıxan, ötən əsrin 90-cı illərinin əvvəllərinə qədər alternativsiz, rəqibsiz fəaliyyət göstərən milli TV məkanında hazırda AzTV, İTV, ANS, Space, Lider, ATV televiziya və radio kanallarının hər biri uğurla fəaliyyət göstərir. Rəsmi və informativ görüntüləri çıxmaq şərti ilə mədəniyyət mövzusu istisnasız olaraq bütün televiziyaların və radioların simasını təyin etmək dərəcəsində xüsusi çəkiyə malikdir. Bu faktor televiziya və radioların əsas uğur mənbəyi sayıla bilər.

Milli televiziya və radioların fəaliyyətinin bütün dövrlərində və yayımların rəqabət apardığı indiki zamanda da dövlətin mədəniyyət siyasətini həyata keçirən qurumları onlarla sıx əməkdaşlıq etmiş mədəni dəyərlərin təbliği qarşılıqlı anlaşma şəraitində telehəllini tapmışdır.

Əlbəttə, artıq tarixə çevrilən əvvəlki onilliklərdə ictimai-siyasi platformanın ideoloji diqtəsilə müəyyən əyintilər də yaşanmışdır. Buna baxmayaraq, keçmişdə də, bu gün də istifadə olunmağa layiq təcrübələr mövcuddur.

Azərbaycanın teleradio məkanı özünün yeni ömrünü, təzə zamanını yaşayır. Xüsusilə televiziyaların hər biri müstəqil dövlətdə yaşayan insanların peşə marağının, gərgin, amma sərbəst yaradıcılıq axtarışlarının formalaşdığı mətbuat institutlarıdır. Həm tarixi təcrübə, həm üst-üstə düşən ümummilli maraqlar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan dövlətində fəaliyyət göstərən televiziya və radiolarla onsuz da mövcud olan əməkdaşlığın önəmli prioritetlər əsasında, sistemli və professional şəkildə davam etdirilməsini zərurətə çevirir.

Digər tərəfdən "Televiziya haqqında", "Mədəniyyət haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "İctimai TV yayımı haqqında", "Kinematoqrafiya haqqında", "Muzeylər haqqında", "Kitabxanalar haqqında", "Nəşriyyat işi haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanunların mövcudluğu səmərəli əməkdaşlığın hüquqi bazasını, vəzifə və hüquqları müəyyən etmək üçün etibarlı təminatdır. Son dövrlərdə həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan dövləti vətəndaş cəmiyyətinin inkişafında azad mətbuatın müstəsna rolunu bir daha təsdiq etməklə yanaşı KİV-lərin maddi-texniki bazasının, peşəkarlığının yüksəlməsində, milli mətbuatın, o cümlədən radio və televiziyaların nüfuzunun beynəlxalq miqyasda təmin olunmasında maraqlıdır.

Bununla əlaqədar Azərbaycanda fəaliyyət göstərən AzTV, İTV, ANS, Space, Lider, ATV və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi radio və televiziya verilişlərinin keçdiyi yola, onların hazırkı fəaliyyətinə və cəmiyyətə təsir imkanlarına nəzər salaraq, mədəniyyət və turizm mövzusunun işıqlandırılmasında bu KİV-lərin müstəsna əhəmiyyətini xüsusilə vurğulayaraq aşağıda bəyan olunanlar barədə razılığa gəldiklərini bildirirlər;

Bəyanat müəllifləri təsdiq edirlər ki, Azərbaycanda fəaliyyət göstərən televiziya və radiolar mədəniyyət və turizm mövzularının işıqlandırılmasında böyük yol keçmiş, çoxlu müsbət təcrübə qazanmışlar və bu təcrübələrin ən yaxşılarının yeni şəraitə uyğun olaraq davam etdirilməsi, ənənələrin qorunması vacibdir.

Bütün informasiyaların efirə verilməsi zamanı, o cümlədən mədəniyyət, turizm məsələləri işıqlandırılarkən dəqiqlik, operativlik və peşəkarlıq başlıca meyardır, mövcud faktlardan istifadə edərkən hər bir KİV sağlam rəqabətə əsaslanır, bu istiqamətdə nailiyyətlər əldə edilməsi üçün Mədəniyyət və Turizm Nazirliyi qanunla müəyyən edilmiş qaydada lazım olan bütün şəraiti yaratmağa borcludur.

Bəyanat müəlliflərinə görə Azərbaycan dövlətçiliyini möhkəmləndirən, vətəndaş cəmiyyətinin mədəni-mənəvi inkişafına xidmət edən dəyərlərin təbliği ən başlıca prioritetdir.



İstər TV və radioların yaradıcı kollektivləri, istərsə də Mədəniyyət və Turizm Nazirliyi efirdə səslənən, göstərilən teleradio materiallarında Azərbaycan dilinin təmizliyinin, qayda-qanunlarının qorunmasında həmrəyliyə və əlbir fəaliyyət göstərməyə borcludurlar.

Haqlı tənqidə dözümlülük, istər mədəniyyət sahəsində, istərsə də TV və radioların işindəki hər hansı bir qüsurun dərhal aradan qaldırılması, bütün yaradıcılıq və təşkilati məsələlərin həllində qarşılıqlı müzakirələrin ən doğru yol olduğu bəyanata qoşulanlar tərəfindən bir daha təsdiqlənir.

Teleradio kanallarının yaradıcılıq yönümünə uyğun olaraq Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin təbliğinə dair müştərək proqram layihələrinin işlənib hazırlanması olduqca vacibdir. Ədəbiyyat, mədəniyyət və incəsənətin tarixi, folklor, klassik musiqi, muğam, abidələr, xalçaçılıq, rəngkarlıq, kitab nəşri, turizm və başqa mövzularda Mədəniyyət və Turizm Nazirliyi ilə birgə layihələrinin həyata keçirilməsi məqsədəuyğundur. Tərəflər razılaşırlar ki, müxtəlif növ və janrlarda filmlərin yaradılması səmərəli əməkdaşlıq forması ola bilər.

Mədəniyyət, ədəbiyyat, incəsənət sahəsinin işıqlandırılması zamanı dar siyasi maraqların güdülməsi yolverilməzdir, informasiyanın yeganə mənbəyi mövcud faktdır, mədəni prosesdir, istedadla yaradılmış yüksək ədəbi-bədii keyfiyyətlərə malik əsərlərdir.

Tərəflər razılaşırlar ki, ədəbiyyat, mədəniyyət və incəsənətə dair verilişlərdə Nazirliyin malik olduğu zəngin informasiya bazasından istifadə olunmaqla faktların səhihliyinə riayət edilməsi, efirə verilən bütün materiallarda Azərbaycan ədəbi dili normalarının pozulmasına yol verilməməsi, xarici filmlərin dublyajı zamanı xalqımızın adət-ənənələrinə zidd olan epizodların göstərilməsinin qarşısının alınması və s. məsələləri tənzimləmək üçün səlahiyyətli daimi monitorinq qrupunun yaradılması zəruridir.

Tərəflər razılaşır ki, efirə verilən ədəbi-bədii, musiqi və dramaturji əsərlərin professional səviyyəsini qorumaq məqsədi ilə birgə bədii şuranın yaradılması zəruridir.

Həmçinin teleradio rəhbərləri və Mədəniyyət və Turizm Nazirliyi yüksək səviyyəli kulturoloji, ədəbi-bədii, musiqili, əyləncəli, turizm mövzulu verilişlərin hazırlanması üçün mükafatlar təsis etməyin, yaradıcı şəxsləri həvəsləndirən tədbirlər görməyin zəruriliyini qeyd edirlər.

Tərəflər Respublikamızın dünyanın müxtəlif ölkələrindəki səfirliklərinə, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinə, konsulluqlara, beynəlxalq təşkilatların nümayəndəliklərinə, diaspor təşkilatlarına və s. çatdırmaq üçün Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin, ölkədə turizmin inkişafı baxımından Azərbaycan coğrafiyasının xüsusi özəlliklərini əks etdirən elektron çap məhsullarının (CD, DVD, VSD, audio və video kasetlər) müştərək şəkildə hazırlanmasını zəruri sayırlar.

"Mədəniyyət və turizm sahəsində ilin ən yaxşı televiziya və yaxud radio verilişi üçün nüfuzlu mükafatın təsis edilməsini, televiziya və radio sahəsində çalışan gənc jurnalistlər üçün treninqlərin keçirilməsini, ildə ən azı üç nəfər istedadlı televiziya və ya radio jurnalistinin təcrübə keçmək məqsədilə dünyanın tanınmış teleradio şirkətlərinə ezam edilməsini, mədəniyyət və turizm mövzularını işıqlandıran jurnalistlərin Alyansının yaradılmasını məqsədəuyğun hesab edirlər.

Tərəflər sonda bir daha təsdiq edirlər ki, hazırda səmərəli əməkdaşlıq üçün münbit şərait vardır, bu şəraitin yaratdığı məsuliyyəti dərk edərək Azərbaycan teleradio məkanında yüksək estetik dəyərlərə malik, istedadlı, ciddi yaradıcı axtarışların məhsulu olan, başqa sözlə müasir tamaşaçı, dinləyici tələbatına tam cavab verməklə yanaşı Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinin qorunub saxlanılmasına və daha da inkişaf etdirilməsinə imkan yaradan əsərlərin meydana çıxmasına nail olmaq mümkündür.

***Əbülfəs QARAYEV,***
***Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri***

***Arif ALIŞANOV,***
***Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri***

***İsmayıl ÖMƏROV,***
***İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru***

***Vahid MUSTAFAYEV,***
***ANS Şirkətlər Qrupunun prezidenti***

***Vaqif MUSTAFAYEV,***
***"Space" Müstəqil Teleradio Şirkəti Məhdud Məsuliyyətli Cəmiyyətinin prezidenti***

***Ədalət ƏLİYEV,***
***"Lider TV" "Media Holdinq"in prezidenti***

***Tağı İBRAHİMOV,***
***Azad Azərbaycan Teleradio Yayım Şirkətinin prezidenti***

**Bakı, 21 sentyabr, 2006-cı il.**